**“Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 164 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 18 fevral 2019-cu il
57

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

**Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin**

**SİYAHISI**

| **Sıra - si** | **Xəstəliklərin Beynəlxalq Təsnifatı üzrə (XBT-10) kodu** | **Xəstəliklərin adı** |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | A15 | Tənəffüs orqanlarının bakterioloji və histoloji təsdiq edilmiş vərəmi |
| 2. | F00 | Alsheymer xəstəliyi zamanı demensiya |
| 3. | F01 | Vaskulyar demensiya |
| 4. | F02 | Başqa rubrikalarda təsnif edilən xəstəliklər zamanı demensiya |
| 5. | F03 | Dəqiqləşdirilməmiş demensiya |
| 6. | F06.0 | Üzvi hallyüsinoz |
| 7. | F06.1 | Üzvi-katatonik hal |
| 8. | F06.2 | Üzvi sayıqlama (şizofreniyayabənzər) pozuntusu |
| 9. | F07.0 | Üzvi mənşəli şəxsiyyət pozuntusu |
| 10. | F10 | Alkoqol qəbulundan yaranan psixi və davranış pozuntuları |
| 11. | F11 | Opioidlərin qəbulundan yaranan psixi və davranış pozuntuları |
| 12. | F12 | Kannabioidlərin qəbulundan yaranan psixi və davranış pozuntuları |
| 13. | F14 | Kokainin qəbulundan yaranan psixi və davranış pozuntuları |
| 14. | F16 | Hallyüsinogen maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları |
| 15. | F20 | Şizofreniya |
| 16. | F22 | Xroniki sayıqlama pozuntuları |
| 17. | F31.1 | Bipolyar affektiv pozuntu, psixotik simptomlarsız növbəti maniya epizodu |
| 18. | F31.2 | Bipolyar affektiv pozuntu, psixotik simptomlarla növbəti maniya epizodu |
| 19. | F31.4 | Bipolyar affektiv pozuntu, psixotik simptomlarsız müşahidə olunan ağır dərəcəli depressiyanın növbəti epizodu |
| 20. | F31.5 | Bipolyar affektiv pozuntu, psixotik simptomlarla müşahidə olunan ağır dərəcəli depressiyanın növbəti epizodu |
| 21. | F33.3 | Qayıdan depressiv pozuntu, psixotik əlamətlərlə müşahidə olunan ağır dərəcəli növbəti epizod |

| | | |
|---|---|---|
| 22. | F60.0 | Şəxsiyyətin paranoid pozuntusu |
| 23. | F60.2 | Şəxsiyyətin dissosial pozuntusu |
| 24. | F60.3 | Şəxsiyyətin emosional davamsız pozuntusu |
| 25. | F60.4 | Şəxsiyyətin isterik pozuntusu |
| 26. | F63.0 | Azartlı oyunlara patoloji meyil |
| 27. | F63.1 | Yanğına patoloji hərislik (piromaniya) |
| 28. | F63.2 | Oğurluğa patoloji hərislik (kleptomaniya) |
| 29. | F65 | Seksual seçimin pozuntusu |
| 30. | F98.5 | Kəkələmə (xüsusi təhsil müəssisələri istisna olmaqla) |
| 31. | H90.5 | Eşitmənin dəqiqləşdirilməmiş neyrosensor tipli itirilməsi (xüsusi təhsil müəssisələri istisna olmaqla) |
| 32. | J38.0 | Səs büküşlərinin və qırtlağın iflici |
| 33. | H54.0 | Binokulyar korluq (xüsusi təhsil müəssisələri, *uşaq musiqi və incəsənət məktəbləri* istisna olmaqla)[1] |
| 34. | H54.1 | Binokulyar ağır görmə pozuntusu (xüsusi təhsil müəssisələri, *uşaq musiqi və incəsənət məktəbləri* istisna olmaqla) |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 20 yanvar 2022-ci il tarixli **23** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 23 yanvar 2022-ci il, 15 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 75)**


-

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 20 yanvar 2022-ci il tarixli **23** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 23 yanvar 2022-ci il, 15 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 75)** ilə “Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı”nın 33-cü və 34-cü hissələrinin “Xəstəliklərin adı” sütununa “**müəssisələri**” sözündən sonra **“, uşaq musiqi və incəsənət məktəbləri**” sözləri əlavə edilmişdir.